Səh. 2 Dərə xəlvət, Ayı bəy – Azər Musaoğlu
Səh. 5 Qocaların inamsızlıq hekayəti – Afiq Muxtaroğlu
Səh. 5 Düzgün peşə seçimi – Aytən Fətullayeva
Səh. 6 Kəndlə şəhər arasında – Eyvaz Borçalı – Esmira Ələkbərli
Səh. 3 Ramazan məktəbindən aldığımız dərs – Hacı Bəkiroğlu
Səh. 4 PSİXOLOQ: 5 YAŞLI UŞAĞIN YERİ MƏKTƏB DEYİL!
Səh. 7 Gülüşün estetikası – Elizbar Cavelidze

İCTİMAİ QƏZET ❀ yeniyolqazeti@gmail.com ❀ “იენი იოლი” საზოგადოებრივი გაზეთი ❀ HAQQIN SÖZÜ – SÖZÜN HAQQI

15 APREL
2024-CÜ İL
№ 07 (202)

# Yeni YOL

Qəzet 17 iyun 2015-ci il tarixindən nəşr olunur.

## BAŞ NAZİR TBİLİSİ CÜMƏ MƏSCİDİNDƏ MÜSƏLMANLARI TƏBRİK EDİB



Müsəlman icması Gürcüstan cəmiyyətinin tərkib hissəsidir və əsrlər boyu davam edən dostluq ənənəsi bizim üçün xüsusilə qiymətlidir. Bu sözləri Gürcüstanın Baş naziri İrakli Kobaxidze aprelin 10-da Tbilisidəki Cümə məscidindəki çıxışı zamanı söyləyib.

Ramazan ayının başa çatması münasibətilə müsəlmanları təbrik edən İ.Kobaxidze deyib: ***“Sizin bənzərsiz mədəniyyətiniz ölkəmizin mədəniyyətinin tərkib hissəsidir. Biz çoxəsrlik tarixi əlaqələr, Gürcüstanda yaşayan gürcü xristianları ilə müsəlmanlar arasında qurulan qardaşlıq münasibətinə görə fəxr edirik.***

***Biz əsrlər boyu birgə çalışmışıq, ümumi vətənimizin rifahı, onun tərəqqisi və inkişafı üçün birgə mübarizə aparmışıq. Bu, bizim böyük qayğı göstərdiyimiz və gələcəkdə də qayğı göstərəcəyimiz münasibətdir, qardaşlıqdır”.***

## GÜRCÜSTAN İLƏ RUSİYA ARASINDA DANIŞIQLARIN 60-CI RAUNDU NƏTİCƏSİZ BAŞA ÇATIB



Gürcüstan ilə Rusiya arasında Cenevrə Beynəlxalq Müzakirələrinin (CBM) növbəti – 60-cı raundu aprelin 4-5-də keçirilib.

Yerli mətbuatın yazdığına görə, son dərəcə mürəkkəb regional və geosiyasi mühitə baxmayaraq, iştirakçılar CBM prosesinə sadiq olduqlarını bir daha təsdiq ediblər.

Tərəflər sonuncu görüşün keçirildiyi 2023-cü ilin dekabrından sonra təhlükəsizlik vəziyyətinə nəzər salıb, vəziyyəti nisbi-stabil qiymətləndiriblər.

Məlumata görə, CBM-in növbəti raundu 25-26 iyun tarixlərində keçiriləcək. Gürcüstanın xarici işlər nazirinin birinci müavini Laşa Darsalia görüşdən sonra yerli KİV-ə açıqlamasında bildirib ki, tərəflər hətta fundamental məsələlərdə belə razılığa gələ bilməyiblər.

O, qaçqınların öz evlərinə qaytarılması məsələsi müzakirəyə çıxarılan kimi Rusiya nümayəndə heyətinin danışıqlar masasını tərk etdiyini deyib.

## AVROPA İTTİFAQI GÜRCÜSTANA XƏBƏRDARLIQ EDİB



Gürcüstan parlamentində “Xarici təsirin şəffaflığı haqqında” qanun layihəsinin yenidən müzakirəyə çıxarılması Avropa İttifaqında (Aİ) ciddi narahatlıq doğurub.

Avropa İttifaqı Gürcüstanı demokratiya, qanunun aliliyi və insan haqlarının təşviqi ilə bağlı öhdəliyi qorumağa çağırıb.

Bildirilir ki, 2023-cü ilin martında ictimai rəy və beynəlxalq reaksiyalara rəğmən, Avropa İttifaqı bu məsələnin yenidən gündəmə gəlməsindən təəssüflənir. Qeyri-hökumət təşkilatları üçün əlverişli mühitin yaradılması, media azadlığının təmin edilməsi demokratiyanın əsasını təşkil edir. Bu, Aİ-yə üzvlük prosesi üçün də çox vacibdir. Şəffaflıq vətəndaş cəmiyyətinin sərbəst fəaliyyət imkanlarını məhdudlaşdıran alət kimi istifadə edilməməlidir.

***“Biz Gürcüstandakı siyasi liderləri Avropa İttifaqına daxil olmaq məqsədilə irəli sürülən islahatları qəbul etməyə və həyata keçirməyə çağırırıq”,*** – deyə Aİ-nin müraciətində qeyd olunub.

## GÜRCÜSTAN KƏŞFİYYAT XİDMƏTİNƏ YENİ RƏİS TƏYİN OLUNUB



Gürcüstan Kəşfiyyat Xidmətinin rəisi vəzifəsinə yeni təyinat olub. Baş nazir İrakli Kobaxidze bununla əlaqədar sərəncam imzalayıb. Sərəncama əsasən, parlamentin müdafiə və təhlükəsizlik komitəsinin sədri İrakli Beraia Kəşfiyyat Xidmətinin yeni rəisi təyin edilib.

İrakli Beraia bundan əvvəl Gürcüstan Daxili İşlər Nazirliyində və Dövlət Təhlükəsizliyi Xidmətində məsul vəzifələrdə çalışıb.

Qeyd edək ki, İrakli Beraia general-mayor Şalva Lomidzeni əvəz edib. Ş.Lomidzenin vəzifəsindən azad edilməsi haqda sərəncamı İrakli Kobaxidze imzalayıb. Ş.Lomidze həmin vəzifəni 2021-ci ildən tuturdu.



# DƏRƏ XƏLVƏT, AYI BƏY

Azər MUSAOĞLU
azermusaoghlu@gmail.com

Dərə xəlvət, tülkü bəydir əslində... Ölkədə səsin-küyün, etirazın, mitinqin, çal-çağırın, maşınların siqnalının qulaq batırdığı bir vaxtda xəlvət dərə varmı, əcəba? – Mən deyim var, siz deyin elə şey ola bilməz. Mən deyim ölkənin, bəlkə də dünyanın ən xəlvət yeri oradır. Siz fağır-fağır gözünüzü döyüb o xəlvət yeri tapmaq üçün beyninizi yormayın, onsuz da tapa bilməzsiniz, yatsaz yuxunuza da girməz, ona görə də birbaşa soruşun ki, bu səsli-küylü dünyada o xəlvət yer haradır, haradadır? – Mən də deyim ki, o xəlvət yer səsin-küyün, etirazın, mintinqin, çal-çağırın, maşınların siqnalının qulaq batırdığı qədim Tiflisin düz köbəyindədir, lap köbək pirsinqi kimi...

Qorqasali 1 ünvanında yerləşən Tiflis Azərbaycan Dram Teatrı xəlvət dərə, bu dramı başına gələn, başına qaxılan bədbəxt teatrın bədii rəhbəri, rejissoru, səs rejissoru, aktyoru, qrimyoru, bəstəkarı, rəssamı, xoreoqrafı, işıqçısı, aparıcısı, ağası, kəndxudası, yiyəsi Turqay bəy də bu xəlvət dərənin tülküsü yox, “Ayı”sıdır (Allah Anton Çexova rəhmət eləsin! Yaxşı da ki, “Ayı”nı yazıbmış). Ayının da qış yuxusuna getdiyini indi “Maşa və Ayı” cizgi filminə baxan uşaqlar da bilir. Bizim ümummilli div yuxumuzun isə fizioloji olmadığını üləmalarımız çoxdan təsdiqləyiblər.

Nə isə, burada uzun-uzadı bu xəlvət dərənin Ayı bəyinin yuxusunu yozmaq niyyətində deyiləm. Pıçıltı ilə “səs salma yatanlar ayılar, qoy hələ yatsın” (M.Ə.Sabir) deyib Ayını qış yuxusundan ayıltmağımdan qorxanlar da bilib agah olsunlar ki, Ayı Tiflisin bu səs-küyünə, etirazına, mitinqinə, çal-çağırına, maşınlarının siqnalına o qədər öyrəşib ki, mənim səsim ona kar eləməz. Ayı onsuz da Novruzdan-Novruza oyanıb yığar bayram xonçasın, şəkərburadan, paxlavadan yeyib, özünün toyun eylər, sonra da kulisdə xəlvətə çəkilib bəyliyini sürər.

Əsl yuxuya gedənlər isə bizlərik, yəni dramı adına yox, taleyinə yazılan, başına qaxılan bu bədbəxt teatrın tamaşaçıları, bu mədəniyyətin daşıyıcıları, icmamız. Uşaqlıqdan canımıza, qanımıza hopdururlar ki, maraqlanmaq, şübhə etmək, sual verməq olmaz, qadağandır, gunahdır; böyüyəndə də maraqlanmağa, şübhə etməyə, sual verməyə qorxuruq. Heç maraqlanmırıq ki, Tiflisdə adı bizim, dadı özgənin olan bir milli teatrımız var, bu teatr əvvəllər heç olmasa ildə dörd dəfə yeni tamaşalarla adını daşıdığı mədəniyyətə xidmət edirdi, tamaşaçılar qarşısına çıxırdı, qastrol səfərləri edirdi. Bəs indi bu teatrdan niyə bir səs-səmir çıxmır. Bu teatrın pərdəsi niyə bağlanıb? Bu dram teatrıdır, yoxsa pioner klubudur? Bu teatrın fəaliyyəti elə Novruz bayramında bədii rəhbərinin bölgələrdə mübtədası, xəbəri kəlləmayallaq Azərbaycan dilində aparıcılıq eləməsindən, aktyorlarının Kosa, Keçəl olub şəkilə çəkilməsindən, qarovulçusunun Dədə Qorqud olub bayram tədbirinə yığılmış oğuzların izdihamında özünü yad aparmasındanmı ibarətdir? Təkcə “Ayı” tamaşasındanmı ibarətdir (Allah Anton Çexova rəhmət eləsin! Yaxşı da ki, “Ayı”nı yazıbmış)?..

Ümummilli yaddaş zəifliyindən, unutqanlıqdan əziyyət çəkdiyimizə görə xatırladım ki, 2020-ci ilin martında, yeni təyin olunmuş (!) Turqay Vəlizadənin bədii rəhbərliyi ilə, koronavirus pandemiyasının insanları evlərdən bayıra çıxmağa qoymadığı bir zamanda Tiflis Dövlət Azərbaycan Dram Teatrının 11 işçisi (8-i aktyor) teatrda baş verən haqsızlığa, özbaşınalığa, fəaliyyətsizliyə etiraz etdiklərinə görə işdən azad edildilər. Elə bundan sonra da teatrın pərdəsi bölgələrdən tamaşalara baxmaq üçün gələn daimi tamaşaçıların, Azərbaycanlıların yaşadıqları regionlara edilən qastrolların, xarici festivalların, yeni layihələrin üzərinə bağlanmağa başladı. İstədikləri yar idi, yetirdi Gürcüstanın Mədəniyyət Nazirliyi.

Tiflisin köbəyində pirsinq olmuş teatr artıq insanların yaddaşında paslanmağa başlayıb. Ömründə bir dəfə “Ayı” tamaşası qoymuş (Allah Anton Çexova rəhmət eləsin! Yaxşı da ki, “Ayı”nı yazıbmış) Turqay bəy tamaşasının həm rejissoru, həm aktyoru, həm musiqi tərtibatçısı olduğu kimi, həm də yeganə tamaşaçısı oldu. Görəsən, bundan dramatik səhnə varmı teatrlarda?..

Ölkədə səsin-küyün, etirazın, mitinqin, çal-çağırın, maşınların siqnalının qulaq batırdığı bir vaxtda dərə xəlvət, tülkü bəy – teatr xəlvət, Ayı bəydirsə, günah hamıdadır.

# SOVET ORDUSUNUN TBILISIDƏ DINC NÜMAYIŞÇILƏRƏ DIVAN TUTMASINDAN 35 IL ÖTDÜ




Tbilisinin mərkəzindəki faciəvi hadisələrdən 35 il ötür. 9 aprel 1989-cu ildə sovet ordusunun hissələri Gürcüstanın müstəqilliyi tələbi ilə mitinqə çıxan çox sayda insana qarşı qırğın törədib.

Həmin gecə Rustaveli prospektində 21 nəfər ölüb, yüzlərlə insan yaralanıb, şikəst olub, kimyəvi qazdan zəhərlənib.

Aprelin 9-na keçən gecə xüsusi təyinatlıların qoşunları Rustavelidə saat 3:56 radələrində göründü. Həmin vaxt indiki parlament binası qarşısında minlərlə adam varıydı.

Sovet ordusunun nümayişçiləri dağıtmağa hazır olması barədə məlumat bir az əvvəl gəlmişdi. Qarşıdurma başlayandan bir neçə dəqiqə əvvəl qanlı qırğının qarşısını almaq üçün Gürcüstanın Katolikos Patriarxı İkinci İliya xalqı ibadət üçün kilsəyə çağırdı. Amma nümayişçilər aksiyanı dayandırmadılar. Səhər açılanda Rustavelidə camaat oxuyub-oynayırdı, sonra da müdhiş bir sakitlik çökdü – hamı güc qurumlarının hücumunu gözləyirdi.

Patriarxın çıxışından bir neçə dəqiqə sonra parlament binası qarşısında silahlı bölmələr göründü.

Dəyənək və istehkamçı belləri ilə silahlanmış hərbçilər general-polkovnik Rodionovun komandanlığı altında nümayişçilərə divan tutmağa başladılar. Xüsusi təyinatlıların dəstəsi kimyəvi qazdan istifadə etdi.

16 nümayişçi yerindəcə həlak oldu. Sonrakı günlərdə həlak olanların sayı 21 nəfərə çatdı. Ölənlərin əksəriyyəti qadınlar idi (o cümlədən məktəbli qızlar). Əksər həlak olanların bədənlərində bel zərbələrinin izləri var idi. Aprelin 9-na keçən gecə 3500 nəfər kimyəvi qazdan zəhərləndi.

Faciədən sonra komendant saatı elan olundu. Sovet mətbuatı zəhərləyici qazın istifadəsi faktını inkar edir, əsgərlərin bel və dəyənəklərlə nümayişçilərə necə divan tutması barədə də heç yerdə deyilmirdi. Ölənləri də yaranan basabasın qurbanları kimi qələmə verirdilər. “Kommunist” qəzeti yazır ki, baş verənlər iğtişaşların nəticəsində oldu.

Baş verənlər haqqında açıq yazmağa cəsarəti çatan yeganə qəzet Gürcüstanın rusdilli “Gürcüstan gəncləri” qəzeti oldu. Bu qəzet mətnlə birlikdə jurnalist Yuri Rostun fotoreportajını da dərc etdi. Həmin sayın tirajı müsadirə olundu və məhv edildi, qəzetin redaktoru Vaxtanq Abaşidze və jurnalistlər ciddi problemlərlə üzləşdilər. Sonradan müsadirə aradan götürüldü, qəzetin həmin sayı da təkrarən çap edildi və oxuculara çatdı. Düzdür, sovet qoşunlarının xüsusi qəddarlığını əks etdirən 2 fotonun çapına senzura sonuna qədər icazə vermədi. Səhifədə də iki boş yer qaldı, amma nəticədə ona yaxın şəkil və mətn sonunda dərc edildi.

Düz iki il sonra, 9 aprel 1991-ci il tarixində keçirilən referendumun əsasında Gürcüstan müstəqilliyini elan etdi. Ali Sovet Zviad Qamsaxurdiyanın təşəbbüsü ilə Gürcüstanın dövlət suverenliyi haqqında akt qəbul etdi.

*Mənbə: JAMnews, David Pipia*

## TƏHSİL NAZİRİYİ XALQ MÜDAFİƏÇİSİNİN 30 TÖVSİYƏSİNDƏN YALNIZ 3-NÜ TAM YERİNƏ YETİRİB



*“Uşaq Hüquqları Konvensiyası ilə nəzərdə tutulmuş öhdəliklərə baxmayaraq, aydındır ki, Gürcüstanda məktəbəqədər tədris və təhsil müəssisələrində insan hüquqları haqqında təhsil problem olaraq qalır”* – Gürcüstan Xalq Müdafiəçisi Levan İoselianinin 2023-cü ildə hazırladığı illik parlament hesabatında yazılıb.

Aydın olur ki, illər ərzində Təhsil Nazirliyi parlament tərəfindən Xalq Müdafiəçisinin hesabatı əsasında verilmiş tapşırıqları pis həyata keçirir.

Aprelin 2-də dərc olunan hesabatda yazılıb ki, parlamentin 2022-ci il hesabatında Gürcüstanın təhsil, elm və gənclər nazirinə 30 tövsiyə verilib, bunlardan:

- **Tam yerinə yetirilib: 3;**
- **Qismən yerinə yetirilib: 14;**
- **Yerinə yetirilməyib: 10;**
- **Qurumdan asılı olmayan səbəb əsasında tövsiyənin yerinə yetirilmə vəziyyətinin qiymətləndirilməsi mümkün deyil: 3.**

Xalq Müdafiəçisinin qiymətləndirməsinə görə, 2023-cü ildə təhsil istiqamətində əsas problem olaraq siyasi sənədlərdə insan hüquqları məsələlərinin pərakəndə inteqrasiyası qalır və insan hüquqlarının müdafiəsi üzrə milli strateji fəaliyyət planında insan hüquqlarının tədrisinin genişləndirilməsinə istiqamətlənmiş aktivliklər yalnız ümumi təhsil sisteminə yönləndirilib. Bu yanaşma formal təhsilin başqa sahələrində insan hüquqlarının tədrisi ilə bağlı dövlətin baxışını qeyri-müəyyən edir. Bu baxımdan ümumi təhsildə stabil tərəqqi var, ancaq peşə və məktəbəqədər pillədə insan hüquqları tədrisinin müvafiq inteqrasiyası böyük problemdir. İllik parlament hesabatında Ombudsman Levan İoseliani yazır: *“Parlamentin verdiyi tapşırıqların parlament qarşısında hesabat verən dövlət qurumları və vəzifəli şəxslər üçün məcburi olmasına baxmayaraq, təəssüf ki, ünvanlı qurumlar tərəfindən ildən-ilə bir çox tapşırıqlar yerinə yetirilməmiş qalır. Xalq Müdafiəçisi dövlət qurumlarını Gürcüstan parlamentinin verdiyi tapşırıqların yerinə yetirilməsinin vacibliyini başa düşməyə çağırır və öz növbəsində Gürcüstan parlamentini Gürcüstan Konstitusiyasında və reqlamentdə nəzərdə tutulmuş bütün nəzarət mexanizmlərindən praktiki istifadəni gücləndirməyə çağırır ki, parlamentin verdiyi tapşırıqların yerinə yetirilməsi vəziyyəti yaxşılaşdırılsın”.*

Hesabatda mühüm tövsiyə və tapşırıqların yerinə yetirilməməsini nümayiş etdirmək üçün Xalq Müdafiəçisi son 3 il ərzində parlament hesabatları vasitəsilə dövlət qurumlarına verdiyi və qismən və ya tam şəkildə paylaşdığı tövsiyələrin siyahısını təqdim edir. Parlament onları qismən və ya tam qəbul edib və ötən üç ilin parlament sərəncamlarına görə, məcburi yerinə yetirilməli tapşırıq olaraq həmin məzmunda qurumlara verib, ancaq illər ərzində yenə də yerinə yetirilməmiş qalır.

**Təhsil istiqamətində yerinə yetirilməmiş tapşırıqların nümunələrində qeyd olunub:**

Məktəbdə insan hüquqlarının tədrisi: müvafiq beynəlxalq təlimatları nəzərə almaqla insan hüquqlarının tədrisi üzrə vahid strategiya və fəaliyyət planı hazırlamaq; siyasət sənədlərində insan hüquqları üzrə təhsilin komponentlərini əks etdirmək; dərsliyin/seriya maketinin yoxlanılması üzrə apelyasiya komissiyasının üzvlərindən biri qərarların qəbulu prosesində iştirak etmək üçün tam səlahiyyəti olan, insan hüquqları sahəsində müvafiq təcrübəyə malik ekspert təyin edilməlidir; məktəb dərsliklərinin qriflənməsinin mövcud proseduruna yenidən baxılmalı və müəyyən edilmiş zərurətə uyğun olaraq bütün mərhələlərdə insan hüquqları üzrə ekspertlərin cəlb olunması təmin edilməlidir.

Milli azlıqların müdafiəsi və vətəndaş inteqrasiyası istiqamətində parlamentin tövsiyə əsasında verdiyi tapşırıqlar yerinə yetirilməmişdir, məsələn: Gürcüstanın azərbaycandilli, ermənidilli və rusdilli məktəblərində ana dili və ədəbiyyatı dərsliklərinin tərtib və nəşr edilməsi, həmin fənlər üzrə təhsil prosesinin Gürcüstanda nəşr edilmiş dərsliklərlə aparılmasının təmin edilməsi üçün tədbirlərin həyata keçirilməsi; azsaylı milli azlıq dilləri (osetin, çeçen, avar, udi, assur və kürd) üçün məktəb dərsliklərinin hazırlanmasını və nəşrini, eləcə də müəllim hazırlığını təmin etmək; öz səlahiyyətləri daxilində milli azlıqların mədəniyyətinin populyarlaşdırılmasına yönəlmiş multikultural proqramların və maarifləndirici tədbirlərin həyata keçirilməsinə kömək etmək.

Xalq Müdafiəçisi izah edir ki, beynəlxalq standartlara əsasən, təhsil işçiləri üçün insan hüquqları üzrə davamlı təlimlər, məktəbəqədər təhsil müəssisələrinin kadrları üçün hüquqi məsələlərlə bağlı sistemli təlimlərin keçirilməsi zəruridir. Amma rəqəmlərə nəzər yetirsək görərik ki, həyata keçirilmir.

*“Hesabat dövründə Xalq Müdafiəçisi Gürcüstanın nəzarətində olan bütün bələdiyyələrdə şəxsi heyət üçün insan hüquqları üzrə təlimlərin keçirilməsi təcrübəsini araşdırıb. Məlum olub ki, 2023-cü il ərzində 21 bələdiyyədə yalnız məktəbəqədər təhsil işçiləri üçün müxtəlif hüquqi mövzularda təlimlər keçirilib. Eyni zamanda, bələdiyyələr hələ insan hüquqlarının tədrisi üçün məzmuni və ya metodik resurs yaratmayıblar. Uşaq Hüquqları Konvensiyası tərəfindən qoyulan öhdəlikdən asılı olmayaraq, Gürcüstanda məktəbəqədər təhsil müəssisələrində insan hüquqları ilə bağlı maarifləndirmənin mühüm problem olduğu aydındır”* – Levan İoseliani parlamentə göndərilmiş illik hesabatında yazır.

*Mənbə: edu.aris.ge*

## RAMAZAN MƏKTƏBİNDƏN ALDIĞIMIZ DƏRS



**Hacı Bəkiroğlu**

hacihaciyev@hotmail.com

Öncəliklə hər birinizi, gec də olsa, Ramazan bayramı münasibətilə təbrik edirəm! Bəli, bayramı keçirməklə Ramazan ayını başa vurmuş olduq. Ramazan Allahın əmr buyurduğu bir aylıq oruc ibadətini əda etmək deməkdir. Allah oruc tutan hər kəsin orucunu qəbul eləsin, tuta bilməyənlərə də tutmağı nəsib etsin!

Ramazan ayı bir məktəbdir. Oruc və iftarla acların halını anlamağı, sədəqə, zəkat və yardımlarla əlindəki malını paylaşmağı, namazlarla Allaha olan qulluğun üstünlüyünü öyrədən bir məktəb.

Oruc nemətlərin qədrini bildirərək insanda təşəkkür duyğularını dərinləşdirir. Hər gün rahatlıqla yeyib-içdiyimiz nemətlərdən günün müəyyən bir hissəsində məhrum qalmaq belə insana acizliyini xatırladır. Hər zaman Rəbbimizə möhtac olduğumuzu öyrədir. Oruc səbir təlimidir. Nəfsin istəklərini məğlub edə bilməmizlə iradəmizi gücləndirir. Oruc nəfsimizi cilovlayaraq ruhaniyyətimizi gücləndirməyimizə köməkçi olur. Oruc bizə gözəl əxlaq və təqva təlim edir.

Həzrət Peyğəmbər buruyub (s.a.s.): “Orucluнun sevinəcəyi iki sevinc anı vardır: biri iftar etdiyi zaman, digəri də orucunun savabı ilə Rəbbinə qovuşduğu an” (Buxari, Savm, 9; Müslim, Siyam, 163). Həmçinin orucluya iftar etdirmək fərasət sahibi möminlərin laqeyd qala bilməyəcəyi böyük bir əcr vəsiləsidir.

Ramazan gecələri sahurları ilə də müstəsna bir rəhmət iqlimidir. Ramazanda qazanılan sahur intizamı eyni zamanda təhəccüd və səhərləri əhya vərdişi qazanma təhsilidir. Ramazan gecələrini ibadətlərlə qiymətləndirmək, hər cür gərəksiz işdən çəkinərək dua və zikr ilə dili, istiğfar və gözyaşı ilə də ürəyi yumaq lazımdır.

Kasıblıq və zərurət içində olan möhtaclar Ramazanın gəlişini səbirsizliklə gözləyirlər. Çünki zəkat, fitrə və sədəqə kimi maddi ibadətlər təbəssümü unutmuş bir çox üzləri xüsusilə bu ayda sevincə qovuşdurur.

Yuxarıda da vurğuladığımız kimi, Ramazan ayına xas olan bir çox xüsusiyyətlər və gözəlliklər vardır ki, bunların ikisi daha üstünlük təşkil edir. Bunlar iftar süfrələri açmaq və ehtiyac sahiblərinə yardımlar paylamaqdır. Bunları həyata keçirənlərdən də Allah razı olsun və hər nə niyyətlə edirlərsə qəbul buyursun. Bu gün bu iki yardımlaşma ənənəsini ya hər hansısa təşkilatlardan və ya bəzi dövlət qurumlarından gözləyirik. Elə yerinə yetirənlər arasında bu iki qurumun üstünlük təşkil etdiyini də görürük. Burada da iki xüsusa diqqət etmək lazımdır. Birincisi, bu yardımları sadəcə hər hansısa bir qurum etməməlidir, bunu hər birimiz edə bilərik və etməliyik. İkincisi isə, bu cür aktivlikləri sadəcə Ramazana xas olaraq etməməliyik. Bunu ilin bütün zamanlarına yayaraq ehtiyac sahiblərinə dəstək olmalıyıq. Ona görə də böyüklərimiz buyururlar ki, Ramazan ayı bitdikdən sonra da Ramazandakı mənəviyyatı qoruya bilməyimiz şərtdir. Burada, fikrimcə, yenə də dövlər qurumlarımıza böyük iş düşür ki, bölgələrdəki ehtiyac sahiblərini təsbit edib mütəmadi yardımlar etsinlər. Axı onların ehtiyacları Ramazan ayında verilən bir qutunun içindəki üç-beş qaletlə və ya iki kilo unla bitmir. Bu ehtiyac sahiblərinin xəstələri var, körpələri var, yaşlıları var, onlara dəstək olmaq, yardım etmək lazımdır.

Bəli, Ramazan bir məktəbdir, ildə bir dəfə gəlir bizə dərsi verir və gedir. Ancaq bu dərsi çalışmaq, tapşırıqları il ərzində yerinə yetirmək bizə və bizim namusumuza qalmış bir işdir.

Deyirlər zəkat malı azaltmaz, əksinə, malı təmizləyərək bərəkətləndirər. Zəkata tabe olanlarımız zamanında zəkatlarını versələr, zəkata tabe olmayanlar da Allahın onlara lütf etdiyi imkandan ehtiyac sahibi insanlara dəstək olsalar, inanın ki, gözü vitrinlərdə qalan qəlbi buruq körpələrimiz olmaz. Əksinə, onlar da bizim körpələrimiz kimi şən olduqlarında Allah da onların sevinc gözyaşlarının hörmətinə bizim qazancımıza bir əvəzinə beş bərəkət verər.

# PSİXOLOQ: 5 YAŞLI UŞAĞIN YERİ MƏKTƏB DEYİL!



Valideynlərin iş qrafikinə, ailə vəziyyətinə və ya öz maraqlarına əsaslanaraq qəbul etdikləri qərarlar var və bu qərarların illər sonra uşaqların psixo-emosional vəziyyətinə təsiri barədə çox az fikirləşirik. Uşağı 5 yaşında məktəbə aparmaq məhz belə qərarlardan biridir.

Dövlət məktəbə getmək üçün yaş həddi müəyyən edir və indi Təhsil Nazirliyi faktiki olaraq qərarı valideynlərin öhdəsinə buraxıb. Qurumun məlumatına görə, vaxtilə birinci sinif şagirdləri üçün yaş həddi uşağın hazırlığı və onun maraqları nəzərə alınmaqla dəyişdirilib. 2024-2025-ci tədris ilində dekabrın 1-dək 6 yaşı tamam olacaq uşaqların da birinci sinfə qeydiyyatdan keçməsinə icazə verilib. 5 yaşlı uşağınızı məktəbə göndərsəniz də, bağçaya qoysanız da seçim sizin ixtiyarınızdadır, amma qərar verməzdən əvvəl mütəxəssislərin və valideynlərin fikrini nəzərə alsanız yaxşı olar. Onlar bu yolu artıq keçmiş və uşağını 5 yaşında məktəbə apardığına görə çoxsaylı çətinliklə qarşılaşmış valideynlərdir.

"EDU.ARIS.GE" ilə söhbət zamanı psixoloqlar qəzəblərini gizlədə bilmirlər və deyirlər ki, heç kim bizim illər ərzində hansı nəticələr əldə etdiyimiz və bu yaşda məktəbə getmənin konkret uşaqların emosional vəziyyətinə necə təsir etdiyi barədə kompleks araşdırma aparmayıb. ***"5 yaşlı uşağın yeri məktəb deyil! Səbəblər, arqumentlər və uğursuz nəticələr haqqında dəfələrlə danışmışıq, amma bizi dinləyən yoxdur! Dekabrın 1-dək 6 yaşı tamam olacaq uşaqlar məktəbə qəbul edilib. Gələcəkdə də yaş dəyişikliyi nəzərdə tutulub və dekabrın 31-dək 6 yaşı tamam olacaq bütün uşaqlar məktəbə daxil ola biləcəklər. Nəyə əsaslanaraq belə qərarlar verirlər? Onlar hansı araşdırmalara əsaslanırlar? Bilmirik! Artıq bu məsələ haqqında danışmayacağıq. Bunun mənası yoxdur!"*** – bu bir çox psixoloqların ümumi fikridir.

Əgər siz bu fikirlə tam razı deyilsinizsə və hələ də 5 yaşlı uşağı məktəbə qeydiyyat etmək istəyirsinizsə, uşaq və yeniyetmələr üzrə psixoloq Mariam Şovnadzenin məsləhətini nəzərə alın. Mariam xanım "EDU.ARIS.GE"yə açıqlamasında bildirib ki, övladları 5 yaşında məktəbə getdiyi üçün problemlərlə üzləşən valideynlərin müraciəti çoxdur. Bunun fonunda onun tövsiyəsi budur ki, qərar qəbul etməzdən əvvəl mütəxəssis uşağın təlim prosesinə hazır olub-olmadığını qiymətləndirsin. Və ya əksər hallarda valideynlər yalnız uşağını yaxşı müşahidə etdikdən sonra seçim etməlidirlər.

Psixoloq Mariam Şovnadzenin fikrincə, uşağın neçə şeir bildiyinin və yazıb-oxumağının fərqi yoxdur, ən başlıcası onun inkişafının bütün tərəflərini dəyərləndirməkdir: ***"Uşaq məktəbə gedəndə ona qədər saymağı, adının hərflərini tanımalı, ən azı 6-7 cümlədən ibarət nağıl kartları əsasında hekayə qurmağı bacarmalı, bir dərsdə 30-40 dəqiqə dayanmaq, dinləmək və qavramaq bacarığına malik olmalıdır. Həm geniş, həm də incə motor bacarıqları müşahidə edilməlidir. Sadə dillə desək, uşaq rahat şəkildə qələm tutmağı, fiqurları kəsib yapışdırmağı bacarmalıdır. Həmçinin bir ayaq üstə tullanmaq, qaçmaq, maneədən tullanmaq, tarazlıq və koordinasiya qabiliyyətinə malik olmalıdır. Müstəqil olaraq paltar geyinməyi, düymələri, kəməri bağlamağı bacarmalıdır. Mən məktəbdə işləyəndə belə bir hadisə olmuşdu: uşaq təkbaşına pilləkənlərlə qalxıb-enməkdən qorxurdu və təsəvvür edin ki, birdən-birə pilləkənlərin çox olduğu, uşaqların sürətlə hərəkət etdiyi bir mühitdə özünü tək hiss edib stres keçirmişdi, hətta hərəkət etməkdə çətinlik çəkirdi".***

Psixoloq bizə tövsiyə edir ki, uşağın fiziki inkişafı və əqli qabiliyyəti ilə yanaşı, təəssüf ki, bu gün az diqqət yetirilən, uşağın psixo-emosional vəziyyətini də nəzərə almalıyıq.

***"Bağçada uşaq daha çox oynayaraq hər şeyi öyrənir. Məktəbdə birdən-birə fərqli bir reallıqla qarşılaşır. Bu reallıqda o, öz emosiyalarını tanımalı, ifadə etməli və özünü sakitləşdirməyi bacarmalıdır; hiss etdiklərini konkret vəziyyətdə dostu və ya müəllimi ilə bölüşməyi, özünü sakitləşdirmək üçün rəsm və ya digər hərəkətlərdən istifadə etməyi bacarmalıdır. Həmçinin uşağınızın həmyaşıdları ilə necə asanlıqla ünsiyyət qurduğunu müşahidə edin. Ünsiyyət qurmaq çətindirsə, tədbirlərdə iştirak etmək, ehtiyaclarını ifadə etmək, əməkdaşlıq etmək çətindirsə, deməli o, məktəbə hazır deyil",*** – M.Şovnadze bildirib.

Psixoloqun sözlərinə görə, uyğunlaşma bacarığı da böyük əhəmiyyət kəsb edir. Əgər uşaq müşayiətçisi olmadan asanlıqla yeni mühitə uyğunlaşa bilmirsə, heç bir halda onu məktəbə aparmayın.

O, bildirir ki, digər mühüm göstərici uşağın məktəbə münasibətidir: ***"Əgər o, etirazını açıq-aydın ifadə edirsə, onu məktəbə buraxmamalıyıq. Əks halda, o, dərsə həvəsini itirə bilər. Məktəbə getməzdən əvvəl uşağa təlim prosesinə adekvat münasibət formalaşdırmağa kömək etməliyik. Biz öz təcrübəmizdən və ya tanıdığımız insanların hekayələrindən danışa bilərik. Bunun üzərində nə qədər tez işə başlasaq, uşaq üçün bir o qədər uyğun gözləntilər yaranacaq və o, psixoloji cəhətdən yeni həyat mərhələsini hazır qarşılaşacaq".***

Birinci sinifdə məktəbə hazır olmayan uşaq olduğu halda hansı nəticəni əldə edəcəyik? – Psixoloqun fikrincə, insanın gələcəyini müəyyən edə biləcək çətinliklərin yaranması da gözlənilir: ***"Uşaq özünü hazır olmadığı bir yerdə və prosesdə aşkar etsə, təkbaşına öhdəsindən gəlməli olacağı çətinliklərlə qarşılaşacaq. Belə bir zamanda uşağa veriləbiləcək ən böyük zərər özünə, məktəbə, dərsə, münasibətlərə qarşı aşağı özgüvəni, arzuolunmaz münasibətinin formalaşmasıdır. Belə uşaqlar əksər hallarda uğursuz olurlar. Mənim məsləhətim odur ki, övladlarınızı, onların hərtərəfli inkişafını diqqətlə müşahidə edin və sadalanan komponentlərdən hər hansı birində problem görürsünüzsə onları bağçada saxlayın, onları narahatlığa, özünəinamın aşağı olmasına və uğursuzluğa qurban verməyin".***

Artıq qeyd etdiyimiz kimi, psixoloqların fikrincə 5 yaşlı uşaqları məktəbə qəbul etməklə hansı nəticələr əldə etdiyimizi göstərəcək kompleks araşdırma aparılmayıb. Bizim bir məqalə ilə araşdırma aparmaq ambisiyamız yoxdur, amma ümumi mənzərəni görmək üçün bir vaxtlar 5 yaşlı uşağını məktəbə aparmış bir neçə valideyndən müsahibə götürdük. Müsahiblərimiz 6 yaşınadək övladlarının məktəbə getməsinin demək olar ki, əsas səbəbini göstərirlər – valideynlər övladlarının bir il itirməsini istəmirlər. İllər keçəndən sonra əksəriyyət deyir ki, uşaqlar məktəb proqramını öyrənməkdə çətinlik çəkib-çəkməsələr də 5 yaşında övladlarını məktəbə göndərməz, uşaqlığını əlindən almazdılar.

İki uşaq anası 51 yaşlı Natia ixtisasca hüquqşünasdır və özəl şirkətlərdən birində çalışır. Övladları arasında yaş fərqi 1 ildən azdır. O vaxt düşünüb ki, bir uşağı bağçada, digəri isə məktəbdə olsa işləmək çətin olacaq və onları müxtəlif vaxtlarda evə gətirməli olacaq. Məhz buna görə o, uşaqlarını birlikdə məktəbə aparmaq qərarına gəlib. ***"Həyatı asanlaşdıracağımı düşünürdüm, amma əksinə, hər şey çətinləşdi. Qız məktəbə hazır deyildi. Yanında böyük qardaşının olmasına baxmayaraq elə problemlərlə üzləşdik ki, psixoloqa müraciət etməli olduq"*** – Natia xanım deyir.

Bacısı və oğlunun təcrübəsini bölüşən 47 yaşlı evdar qadın Elisonun da acı təcrübəsi var: ***"Vaxtilə nazirlikdə müsahibə əsasında bacıma istisna edilib və 5 yaşında məktəbə getməyə icazə verilib. Yeni mühitə uyğunlaşmaq onun üçün çətin idi. Onun da proqramı qavramaqda problemi var idi, amma onun çox da istedadlı olmadığı deyildirdi. İllər sonra oğlumu məktəbə qoyanda, təəssüf ki, bacımın təcrübəsini nəzərə almadım. Fikirləşdim ki, mənim Nikolozum yazıb-oxumağı bilir, indiki uşaqlar daha çox inkişaf edib, nə problem var. Problem həqiqətən var idi, Nikoloz məktəbdə əsəbilik səbəbindən bir neçə dəfə pis olub. Mən onun müstəqil olduğunu düşünürdüm, amma məktəbdə hər şey onun üçün çətinləşdi, sinifdə qala bilmədi, sinif yoldaşları ilə dostlaşa bilmədi, məktəbə alışması üçün çox əsəb və zəhmət sərf etdik".***

İkinci müsahibimizin təcrübəsi fərqlidir. İki qız anası olan 40 yaşlı Nona ixtisasca mühasibdir. Oktyabr ayında anadan olan Nini 5 yaşında məktəbə qəbul olunub. Deyir ki, uşaq əlifbanı bilməsə də, dərslərinə yaxşı yanaşıb, özəl məktəbin kifayət qədər çətin proqramına qalib gəlib və ilk dörd şagird sırasına düşüb: ***"Qərarımdan heç vaxt peşman olmamışam. İkinci qız övladım yanvar ayında dünyaya gəldi və 6 yaşında məktəbə apardım. Artıq gürcü və ingilis dillərində oxuyurdu. Məktəb proqramı onun üçün maraqsız idi. Bu təcrübəyə əsaslanaraq, hər kəsə uşağın bir ilini itirməməyi və cəsarətlə 5 yaşlı uşağını məktəbə aparmağı tövsiyə edirəm".***

Diş həkimi olan 35 yaşlı Maya heç vaxt valideynlərə Nona kimi məsləhət verməzdi. O, "EDU.ARIS.GE"yə bildirib ki, o vaxt 5 yaşlı oğlunu məktəbə aparmaq qərarını yalnız bir il itirməsinlər deyə qəbul edib, indi hesab edir ki, səhv edib: ***"Oğlum dördüncü sinifdə oxuyur. 5 yaşında məktəbə apardım, bir ilini itirməsini istəmirdim. Fikirləşdim ki, icazə var, niyə də olmasın? Əvvəlcə müəllimə heyran oldu, amma sonra cəhənnəm başladı – sinifdə qala bilmədi. Onun üçün dərs oxumaq çətin deyildi, amma mən onu məktəbdən gələndə oturmağa məcbur edə bilmirdim. Oynamaq üçün darıxırdı. O, daim yorğun idi. Bir ildən çox vaxt lazım oldu ki, məktəbə getməyə, oxumağa etiraz etməsin".***

46 yaşlı Marika PR menecerdir. Daimi məşğul qrafiki var və uşaqla münasibət üçün lazımi vaxtın qalmadığını hiss edir. Barbarenin 5 yaşı olanda, anası istədiyi müəllimin birinci sinfə uşaq götürdüyünü eşidir, belə bir müəllimdən uşağının dərs almaqda çətinlik çəkməyəcəyini düşünür. Barbare bağçaya getməyib, yazıb-oxumağı bilmirdi, amma yenə də qızı məktəbdə qeydiyyatdan keçirir: ***"O, hər şeyi məktəbdə öyrənməli idi. Bu məni bir az qorxutdu, amma bəxtim gətirdi. Proqram hissəsində problemimiz olmadı (3-4 saat dərs oxuyurduq), amma uşağın fərqli etirazı var idi – dərsdə oturmağı xoşlamırdı, başa düşə bilmirdi ki, niyə oxumalıdır? Dostları ilə 35 dəqiqə niyə danışmamalı, lövhəyə baxmalıdır. Arxasını müəllimə çevirib oturmuş, yarı uzanıqlı vəziyyətdə müəllimə cavab verirmiş. Müəllim bu barədə mənə ancaq məsələ həll olunanda danışdı. Nə yaxşı ki, müəllim üçün əsas məsələ oturuş tərzi yox, uşağın iştirakı idi. Davranış baxımından uşağa sərbəstlik verib, amma uşaq öyrənməyə etiraz etmirdi. Bu gün necə edərdim? – Övladımın uğur qazanmasına baxmayaraq onu 5 yaşında məktəbə aparmazdım. Uşaq oynamaq istəyəndə oynamalıdır. Bu, təkcə mənim fikrim deyil. Məktəb yaşı psixoloqlar tərəfindən müəyyən edilib".***

Xatırladaq ki, 2024-2025-ci tədris ili üçün birinci sinfə şagird qeydiyyatı iyulun 12-nə kimi davam edəcək.

*Mənbə:* **"EDU.ARİS.GE".**

*Gürcü dilindən tərcümə etdi:* **Aynurə ƏLİYEVA**

# QOCALARIN İNAMSIZLIQ HEKAYƏTİ



Heç kimə, hətta öz övladlarına, nəvə-nəticələrinə belə etibar etməyən qocalar haqqında bir hekayət oxuyacağınızdan əmin olun. O səbəbdən də, dəli sözü, qulağınız məndə olsun.

Bu mövzunu banklardan birinə yönüm düşərkən qamarladım. Və düşündüm ki, hazır halva bir mövzudur, elə gördüklərimi yazsam əməlli-başlı bir yazı alınar. Elə bu ümidlə də başladım klaviaturanın təpəsinə taqqıldatmağa.

Bankda xeyli sıxlıqdır. Tünlüyün yaranması bu gün müştərilərin arasında təqaüdçülərin çoxluğu ilə bağlıdır. Bu gün qocaların əllərinin, ciblərinin sevinən günüdür. Ayda bir gün də olsa onların da sevinmək, ailə büdcəsinə yardımda bulunmaq, bu yardımdan dolayı özlərini yararlı saymaq haqlarını kimsə dana bilməz. Niyə ayda bir gün məsələsinə də bir qədər sonra aydınlıq gətirməyə çalışacam.

Qocaların çoxu köməksiz nə yeriyə, nə də ayrı bir hərəkət edə bilir. Ya gərək kimsə onların qoluna girə, bu da olmasa, gərək əlağacına dirənələr. Yaşı səksəni, hətta doxsanı keçmiş bu qocaların başqa cür hərəkət etmələri mümkünsüz görünür. Damarları çıxmış əlləri ilə əlağacından elə möhkəm yapışırlar ki, deyərsən, tutduqları bu quru ağac onları həyata bağlayan yeganə vasitə, bədənlərinin ayrılmaz bir parçasıdır.

Allaha ağır getməsin, bu günlük, sabahlıq ixtiyarları buralara gətirib çıxaran nədir? Axı onların alacaqlarını almaq bu qədərmi müşküldür? Elə onları buraya gətirən yaxınları – oğlu, qızı, nəvəsi, nəticəsi, ya elə qonum-qonşusu onların təqaüdlərini ala bilməzlərmi? Ala da bilərlər, hətta anrı da keçərlər. Onların bu bir qırıq pulu almaqlarına heç nə mane olmur, qadağan-filan da yoxdur ki, sən niyə kiminsə pulunu bankomatdan çıxarırsan. Bəs səbəb nədir ki, bu qoca-qoltuqlar ayda bir dəfə bankın yolunu tuturlar? Heç əksəriyyəti bankomatdan pulu necə çıxarmağın yönünü-yöntəmini də bilmir. Onların əvəzinə bu əməliyyatı ya bank işçilərindən biri, ya yanında gələn müşayiətçi, ya da banka yolu düşən müştərilərdən biri yerinə yetirməli olur. Kənar adamların hərdən bu qocaları aldatmaları, pullarının arasına keçmələri kimi xəbərlər də qulağımıza dəyir. Bu da bir ayrı dərddir.

Düzdür, bu ixtiyarların bir qisminin pensiyalarını almağa adamları yoxdur. Oğul-uşaq onları dörd divarın arasında, damın altında taleyin ümidinə buraxaraq, qazanc dalınca gedib. Onlar da məcburiyyətdən öz müşküllərini özləri çözməli, uşaq yerinə də, böyük yerinə də özləri yüyürməli olurlar.

Bu ixtiyar qocaların, yaşlı qadınların oğul-uşağa etibar etməmələrinin min bir səbəbi var. Nəvəyə-nəticəyə etibar edib bank kartlarını verəcəklər, nəvə-nəticələri da aparıb qoyacaqlar mərc oyunlarına, oyun aparatlarına. Ya da qulaqlara qurğuşun, ekstaza, transa getmək üçün qara-quraya. Ondan sonra gəl, ölünü qoy, dirini ağla. İt də gedəcək, ip də. Nənə-baba da oturub gözləyəcək ki, pensiyası bu gün gələcək, sabah gələcək. Gözləməkdən gözlərinin kökü saralacaq.

Oğula-qıza da heç etibar qalmayıb. Niyəsini deyimmi? Oğulun, qızın da yüz dərdi-azarı var. Ya işıq pulu ödəməlidir, ya qaz pulu. Hələ interneti demirəm. Hələ daha böyük azar olan bank kreditlərini yada salmıram. Sizin bəzilərinizin bu məqamda mənə çəp-çəp baxdığınızı hiss edirəm ha. Guya mən olmayan şeylərdən danışıram, siz də özünüzü elə aparırsınız guya heç belə şeyləri görüb eləməmisiniz.

Doğmalarının əllərinə çöplə çəyirtkə verdiklərini, əllərini quru yerdə qoyduqlarını öz acı təcrübələrindən bilən bu yaşlı, ixtiyar vətəndaşlarımızın yadlara, qonum-qonşuya etibar etmələri mümkündürmü? Əlbəttə, ilan vuran ala çatıdan qorxan kimi, dəfələrlə ağzı yanmış bu insanlarımızın hamıya şübhəylə baxmaları təbii görünməlidir.

Bu biçarələr aldıqları pensiyanı gorlarına aparası deyillər. Onsuz da ailənin əyər-əskiyinə xərcləyəcəklər. Bir az da gələcək qara günləri üçün gorluq-kəfənlik toplamağa niyyətləri var. Bunu da başlarına bir iş gələndə oğul-uşağın təntişməməsi, əl-ayağa düşməməsi məqsədilə etdikləri gün kimi aydındır.

İndi biz durub kimi qınamalıyıq? Sosial ehtiyaclar burulğanında boğulan oğulu-qızımı, yoxsa kisəsi boş qalan qocalarımı? Bizim bu məsələdə kimin tərəfini saxlamamız, kimə qahmar çıxmamız problemi həll etməkdən çox, daha da qəlizləşdirməzmi? Əmanətə xəyanətin yaxşı bir əməl olmadığını, halallığın müsbət insani keyfiyyət olduğunu da hamımız bilirik. Amma nə etməli, kapitalizmin acı gerçəklərindən biri alıb-aldatmağın qoçaqlıq sayılmasıdır. Atalarımız yalan ayaq tutar yeriməz desələr də, kapitalın dəyər sayıldığı indiki zamanımızda yalan nəinki ayaq tutub, hətta yeriyir də, yeri gələndə yüyürür də. Heç dalınca atlı salsan çata da bilməzsən.

Siz nə deyirsiniz?!.

**Afiq MUXTAROĞLU**

# DÜZGÜN PEŞƏ SEÇİMİ



Bir neçə gün öncə vahid milli imtahanlara qeydiyyatdan keçənlərin sayı açıqlandı. 47000 abituriyent universitetə qəbul olmağın xəyalını qurur. Bununla yanaşı, seçim qarşısında qalanlar var. İnsan müəyyən seçimlər qarşısında qaldıqda düzgün qərarı verə bilməsi də bir o qədər çətinləşir. Peşə seçimi insanların həyatında verdiyi ən əhəmiyyətli qərarlardan biridir. Lakin insan hər zaman bu seçimi istədiyi kimi edə bilmir. Bunun əsas səbəblərindən biri insanın özünü qiymətləndirməyi bacarmamağıdır. “Mənim qabiliyyətim bunadır, bu sahədə irəliləməliyəm” kimi qiymət cədvəlini insan özü doldurmalıdır, istedadını kəşf etməlidir.

Bu gün ölkəmizdə gənclərimizin azad seçim etmək imkanı var. Buna baxmayaraq, peşəkar olmayan peşə sahiblərinin sayı günü-gündən artır.

Bəziləri nəsildən-nəslə ötürülmə prinsipi ilə peşə seçirlər. Valideynlər həkimdirlərsə mütləq övladları da həkim olmalıdır. Hüquqşünasların uşaqları ancaq hüquq oxumalıdır.

Başqa bir prinsip gənclərimizin digərlərinə baxaraq seçim etməsidir. Kimsə hansısa peşədə uğur qazanırsa gənclərimizin ağlına da həmin peşəni seçmək gəlir. Elə düşünürlər ki, onlar da bu işdə müvəffəqiyyət qazanacaqlar. Peşə seçimini düzgün etmədikdə uzun müddət həyatda öz yerlərini tuta bilmirlər. Gənclərin çoxu peşə seçimini təsadüfi edirlər. Onların yığdıqları bal istədikləri peşəni seçməyə çatmadıqa istər-istəməz başqa ixtisasa yiyələnməli olurlar. Bu da gələcək həyatlarında gənclərimizin iş tapmasında çətinlik törədir.

Maraqlı gəldiyi üçün abituriyent və tələbələrdən ibarət olan sosial şəbəkədə anket açdım. Bu şəkildə bir qism şəxslərin seçim edərkən hansı amilə əsasən seçim etdiklərini öyrənməyə çalışdım. Deməli, 100 nəfərdən 30 nəfər ailəsi istədiyi peşəni seçib, 50 nəfər öz azad düşüncəsi ilə, qalan 20 nəfər isə pullu sahə olduğu üçün həmin ixtisas üzrə oxumağa qərar verdiyini qeyd edib. Daha sonra şərhləri oxudum. Şərhlərin hər biri müxtəlif düşüncələrdən ibarət idi. Bir nəfər yazıb ki, “Sevdiyin peşəni seçməyə, xəyalların arxasınca getməyə dövr imkan yaratmır”. Bir xanım da onun cümləsini davam edib: “Çünki indiki dövrdə hər şeyə pul lazımdır. Maaş günləri onsuz da sevinəcən, pulun əlinə gələndə, isdədiyin kimi geyinib, gəzib, xərcləyəndə işini sevəcəksən”. “İşində pul yoxdursa bir zamandan sonra verdiyin qərardan peşman olacaqsan”. “Ən yaxşısı dədə-baba məsəli, ailə tövsiyəsidi” və s. kimi şərhlər yazanlar da var idi.

Gənclərin bir qismi valideynlərinin istədiyi peşəni seçdiklərini qeyd etmişdilər. Peşə seçimində əsas problemlərdən biri də məhz valideynlərlə bağlıdır. Onlar övladlarını öz arzuladıqları ixtisasda görmək istəyirlər. Amma övladlarının fikirlərini öyrənmirlər, onların qabiliyyətini nəzərə almırlar. Uşağın öz seçimi olduğu halda valideynin istəyi ilə başqa peşə seçməli olur. Belə olan halda nə deyə bilərik? Bu zaman belə bir şərh yazdılar: “Yanlış seçimlərin səbəbini sadəcə valideynlərə bağlamaq düzgün olmazdı məncə. Valideynlərin rolu böyükdür, ancaq yeniliyə bağlı cəmiyyət faktorunu, aşağı səviyyəli təhsil sistemini, etnik azlıq olaraq əzilmişliyin gətirdiyi özünə oxşar insanlardan qopa bilməmək və ya ekonomik səbəblər olar bilər. Jurnalistika bakalarvını bitirib, sosiologiya magistraturasını yarıda qoyub dönərçi olmağı anam istəmədi, mən istədim”...

Düzgün peşənin seçilməməsi bəzən insanların bədbəxt olmasına gətirib çıxarır. Hər bir insanı hansı peşəni seçəcəyi, hansında uğur qazanacağı fikri düşündürməlidir. Düzgün peşə seçmiş insanın öz yaradıcılığına meyilliliyi güclənir və hətta öz peşəsinin mütəxəssisinə çevrilə bilir. Bəyənmədiyin, sevmədiyin işi yerinə yetirmək çox çətin və maraqsız olur, adam işdən yorulur, bezir, işinin nə vaxt qurtaracağını səbirsizliklə gözləyir. Peşə təkcə pul qazanmaq, dolanmaq məqsədi ilə yox, həm də özünü ifadə etmək, doğrultmaq üçün seçilməlidir. Peşənin insan həyatında rolu yüksəkdir. Peşə insanın gələcəyini təmin edir. Ona görə də hər kəs peşə seçərkən düzgün seçim etməlidir.

Əgər hər birimiz istəyiriksə işimizdə peşəkar olaq bunun üçün özümüzə ən uyğun olan peşəni seçməliyik. Elə bir peşəni seçməliyik ki, həyatımız boyu məşğul olduğumuz sahədən sıxılmayaq.

**Aytən FƏTULLAYEVA**
*Tbilisi Dövlət Universitetinin Dəqiq və təbiət elmləri fakültəsinin birinci kurs tələbəsi*

# KƏNDLƏ ŞƏHƏR ARASINDA – EYVAZ BORÇALI



Qocalmaq hər adama nəsib olmur dedilər. İnsanın ən böyük xoşbəxtliyi deyilmi ki, dönüb geri baxanda gördüyün mənzərədən razı qalasan və fəxrlə düşünəsən: belə qocalasan qocalanda da... Bir ömür yaşayasan ucalan xətlə, rütbələr, vəzifələr, qibtələr içində, yəni bu qədərmi tale insana gülərdi. Bəzən yollar özü qarşında açılır, lap nağıllardakı kimi. O açılan yollarda xaruqələr yaratmaq isə fərdi qabiliyyətdir...

Bioqrafiyasına nəzər salanda heç bir yaradıcı insanı bu qədər əhatəli vəzifələrdə, həm də dolğun, bir sözlə, tarix yazan görmədim. Azərbaycan SSRİ və Azərbaycan Respublikası həmyerlimizi layiqincə mükafatlandırıb. Mən deputatlıqdan "Şərəf", "Tərəqqi" orden-medallarına qədər titulları saymadan (kifayət qədər yazılıb) gəlirəm yurd bağlılığına.

Eyvaz Borçalı artıq 85-i arxada qoyub. Elə 85-in pəncərəsindən baxanda, görəsən, nələr düşünür dedim. Uzun illər şəhərlə kənd arasında qalan şair, qəlbim buradadır, ruhum Borçalıda deyirdi. Bəzən ruhun arxasıyca getmək istəsə də cisim çəkirdi. Beləcə, şəhərlə kənd arasında qalırdı.

Gözəl ailəsi – həkim qızıları, hüquqşünas oğlu, bu qədər zəngin keçmişi onu ovudarmı... 87-nin qapısına doğru gedən şair:

*Səksəndən üz tutub gedən gəmiyəm,*
*Arxaya baxanda adam səksənir.*
*Çalxanan dəryada uşaq kimiyəm,*
*Göz həyan axtarır, qulaq səs-səmir...*

O, çoxlardan biri kimi sadə bir sovet ailəsində doğuldu – qədim Borçalının Ağməmmədli kəndində, Ayvazlı nəslində. Elə adını da Ayvaz qoydular, sıradan biri kimi... 1938-ci ilin qadasından keçib 1945-ə çatdı. Kəndindəki məktəbdə də qələbə sevincini yaşayaraq şagird oldu. Bu onun uğurlara doğru ilk addımı idi. Məzun olarkən arzularının məskəninə – Bakıya üz tutdu. İçində bir ədəbiyyat sevgisi var idi. Tərcüməçi də olmaq istəyirdi. Axundov adına İnstitutda rus filologiyası fakültəsində tələbə oldu. Fakültə ab-havası, yenilik arzusu onu özündən aldı. Dərslərdən əlavə qiraətlərə ayırdı zamanını. Bəzən cızma-qara tərcümələr etdi. Bu minvalla davam edərkən diqqət çəkdi. Rəsmi şəkildə göndərişlə artıq beşinci kursdan Qorki adına Ədəbiyyat İnstitutunda tərcüməçi kimi tələbə oldu.

Artıq Borçalıdan xeyli uzaqlarda idi. Şimal soyuğunda bir istilik istədi. Doğmalardan uzaqda, yad eldə ruhunun səsiylə əlinə qələm aldı, ruh dedi, qələm yazdı, sonda da bir ad yazdı: EYVAZ BORÇALI.

*...Borçalı torpağı əzəli sevdam*
*Adını adıma yaraşdırmışam.*

Beləcə, bir imza yarandı, sıradan biri kimi, gənc şair kimi. İki il sonra da məzun kimi Bakıya döndü. "Azərnəşr"də işə başladı. Az vaxt sonra redaktor oldu və 7 il bu vəzifədə çalışdı. Bu hələ başlanğıc idi. Azərbaycan telefilmində ssenari redaksiyasında da üzv idi. Bir gün qərarlaşdılar ki, bir kinojurnal yaradılsın. Bu, Sovet İttifaqında ilk satirik kinojurnal olacaqdı. Onlarla rüşvətxorun, müftəxorun yuxusunu ərşə çəkən "Mozalan" belə yarandı. Redaktor məsuliyyət olduğu qədər risq idi. Artıq 5 nömrə televiziya ilə yayımlanmışdı. Əks-sədası respublikada hay-küy yaratmışdı. Baxmayaraq ki, dövlət sifarişi idi, rəsmi kanal, rəsmi iş, amma deyilənə görə, Heydər Əliyev komitədə iclas zamanı içtirakçılara öz məxsusi zəhmi ilə müraciət edib: "Mozalana baxırsınız? Mütləq baxın, baxın görün nə var, nə yox!"

Məmurlar arasında pıçhapıça çevrilən bu tapşırıq Eyvaz Borçalı üçün böyük motivasiya oldu. 13 il baş redaktor oldu, demək olar ki, hər ssenarini öz xəlbirindən keçirdi, ssenariləri çox vaxt özü yazırdı. Arxayın idi ki, ona heç kim heç nə edə bilməz, çünki "Mozalan"in hər buraxılışını Heydər Əliyev şəxsən izləyir, maraqlanırdı.

Sonra kinostudiyanın direktoru oldu. Onda filmlər rus dilində çəkilib, Azərbaycan dilinə dublyaj olunurdu. Bu da səslənmədə sonra natarazlıq yaradırdı (bəzi rejissorlar kənardan aktyor gətirirdilər və məhz ona görə hamı rus dilində danışmalı olurdu). Eyvaz Borçalı bu ənənəni dəyişdi.

Yəqin "Mozalan"dakı uğurun nəticəsi idi ki, hətta özünün belə xəbəri olmadan onu birbaşa yeni yaradılan "Kirpi" jurnalına redaktor təyin etdilər. Artıq televiziya xofu indi jurnalla ictimaiyyəti satira ilə güldürür və ayıldırdı. Eyvaz Borçalı redaktor kimi yalnız tapşırıq verib nəzarət etmirdi. Özü rəssamları çağırıb karikatura eskizini də verərdi ki, belə çəkin. Qoyunların əlində gül Lenin abidəsi önünə gəlməsi, Mirzə Ələkbər Sabirin nazirlər kabinetinə daxil olması və titrdə "Qalxın, məhkəmə gəlir!" yazılması və s. kimiləri qorxuya salırdısa, nə qədər adam da təəccüblə "şir ürəyi yeyibsən" deyirdi. Eyvaz Borçalı isə yenə də motivasiya aldığı insanın uzaqdan da olsa dayağını hiss edirdi. Ürəklə, sevə-sevə işləyirdi.

Müstəqillik dövümüzdə baş verən ictimai, sosial problemlər Borçalıda da titrəyiş yaradanda gürcüstanlı ziyalılardan biri kimi el səsinə qoşuldu. Bakıda yaradılan Borçalı cəmiyyəti xətti ilə xeyli işlər gördülər: yer adlarının kütləvi dəyişdirilməsinin dayandırılmasında, məktəblərə Azərbaycandan dərsliklərin gətirdilməsində və s.

Bütün yaradıcılığını "Mozalan"a, "Kirpiy"ə həsr etməklə poeziyadan xeyli uzaqlaşdım – deyir şair – bəlkə daha geniş yaza bilərdim. Doqquz kitabı özü üçün az hesab edir. Uzun illər vəzifələrdən sonra bədii yaradıcılıq üçün tərcüməyə qayıtdı. Puşkin, Lermontov onun fikrincə fərqli tərcümə idi, axı tərcümənin də texnikası vardı. Təqaüdə çıxdıqdan sonra bir ixtisasçı kimi rus ədəbiyyatından 6 tərcümə kitabı nəşr etdirdi.

Azərbaycanı qarış-qarış gəzən şair yaşının ahıl çağında Borçalıda qoyub-getdiyi uşaqlığı üçün darıxır. Zamanı işə-gücə xərcləyəndə bəzən aylarla gedə bilmədiyi yurdu üçün darıxır, ayaqyalın qaçdığı otların üstündəki şeh üçün darıxır. Yaşanan o dəbdəbəli, vəzifəli, hörmətli bir ömür yolunun əvvəlindəki kiçik bir zaman üçün darıxır. Ucaldıqca ucalsa da içində bir balaca Ayvazuşağı tayfasının Ayvazı vardı, onun da bir xınalı quzusu vardı, yaylaqdakı uşaqlar vardı, bir də doğmalar vardı...



*Nərgizli ot biçən kənd uşaqları*
*Mənim boz quzuma ot verdinizmi?*

*...Ötürə bilmərəm daha bu yazı,*
*Kərənti götürəm, ot biçəm gərək.*
*Şəhərli Eyvazla kəndçi Eyvazı*
*Beş-altı günlüyə borc alam gərək!*

İnanmıram içimizdə elə biri olsun ki, Qaçaq Nəbi ("Atları yəhərləyin") filmindən məşhur mahnını dinləyəndə kövrəlməsin:

*Dağlara deyin çəkməsin bir də*
*Dumandan pərdə, dözmərəm dərdə...*

Bütün varlığıyla məhz bu günündə doğma kəndinə gəlmək istəyən şair yuxularında getdiyi oylaqları addım-addım gəzmək istəyərdi, mümkünsüz də olsa istəyərdi, yollara baxa-baxa...

*Yoxsa kəndimizin içindən keçən*
*Qoca Borçalıdan gəlir bu yollar...*

*...Sözlü-sovlu olur payız günləri*
*Gedim kəndimizə baş çəkim gərək!*

Bəli, bilmirəm bütün insanlarmı belədir, yoxsa bizmi millət olaraq beləyik – başımız nə qədər ucalara dəysə də, ayağımızın dayandığı torpağa, havaya, suya can atırıq. Bu gün xəyalları yalnız Borçalıda olan Borçalı adını adında yaşadan Eyvaz Borçalıya, səhhəti zəifləyən eloğlumuza sağlıq arzu edirik!

**Esmira ƏLƏKBƏRLİ**
*Marneuli rayonu Qaçağan 2 saylı ictimai məktəbin kimya-biologiya müəllimi*

# GÜLÜŞÜN ESTETİKASI

**Elizbar CAVELİDZE**



*(əvvəli ötən sayda)*

Türk xalqının iki təbiətli bir insan kimi düşündüyü Xoca (Molla Nəsrəddin) təxminən bu şəkildə qəbul edilir. O, təbii insan deyil, sxem olardı, onun xalq yaddaşında radikal olaraq fərqli gülüşün gözü açıq qəhrəmanı kimi bərqərar olduğuna görə. Eləcə də biz əmin olmalıyıq ki, Xocanın saçdığı hikmət xalqa məxsusdur, çünki onun müdrikliyinin mənbəyi xalqdadır. Onun nadir hallarda nümayiş etdirdiyi axmaqlıq, səfehlik isə insanların şüur güzgüsündə əks olunur, hansı ki, ümumiyyətlə, insanlığın nöqsanını əks etdirir!

Bir sözlə, XIII əsrdə, daha etibarlı şəkildə XIV-XV əsrlərin qovşağında yaşamış Xoca Nəsrəddin həqiqətən də yumoru ilə və hazırcavablığı ilə seçilən əsl şəxsiyyət idi. Ancaq bizə məlum olan gülüşü əmələ gətirən subyektlərə nəzər salsaq bir şey danılmaz olacaq: bu uydurmanın bir şəxsə məxsus olması mümkün deyil. Üstəlik, quruluşuna və məzmununa görə xalqın azad və sərbəst gülüşünün məhsuludur və Nəsrəddinin özü də gah müdrikliyi ilə, hazırcavablığı ilə, gah da gülüş doğuran axmaqlıqla seçilən tipi və siması xalq tərəfindən yaradılmışdır, onun təxəyyülünün məhsuludur.

Hətta Xocanın gah Səlcuqlular dövründə yaşaması, gah Teymurləngin təlxəyi olması, gah məşhur sufi Mənsur Həllac ilə, gah da əzabkeş Nəsimi ilə bir süfrə başında oturması da bundan xəbər verir. Burada, ən azı bir rəvayətə görə, Hacı Bəktaşi Vəli başçılarını təyin etdiyi on təkkə qurmuşdur: Nəsimi, Şəmsi Təbrizi, Mənsur Həllac, Nəsrəddin Xoca, Sarı Saltık, Hacı Bayram Vəli *(Академик Гордлевский В.А., Избранные сочинения, т.I, М., 1960, стр. 267)*. Rəsmi din nümayəndələri – fəqihlər tərəfindən azğın, azad düşüncələrinə görə pislənərək ağır cəzalandırılan məşhur əzabkeş sufilər Mənsur Həllacda və Nəsimidə Xoca Nəsrəddinin gülüşünün qeyri-qanuni, qəbuledilməz mahiyyətindən də xəbər verilir. Yuxarıda qeyd etdiyimiz rəvayətə görə, onlar müəllimlərindən bir toyuq başı oğurlayıblar. Biri toyuğu yoldu, biri sümükləri atdı, üçüncüsü isə onların şeytanlığına və həyasızlığına gülürdü. Bu günaha görə ruhani mürəbbi onlara gələcəyi qabaqcadan xəbər verdi: ilk ikisi ölümlə cəzalandırıldı, Xoca Nəsrəddin isə təlxəyə çevrildi *(Elə orada, səh. 268)*.

Başqa bir rəvayət isə Xoca Nəsrəddinin "təlxəyə" çevrilməsi faktını bizə belə nəql edir: Bir Xoca var idi ki, onun da yeddi şagirdi var idi: Nəsrəddin, Seyid Nəsimi, Seyid Muxarem, Kəsikbaşı və başqaları. Bir dəfə Xoca bir qoyun kəsdi və onlar ləzzətlə yedilər. Xoca sümükləri qoyun dərisinə bükdü, dua etdi və qoyun canlandı. Gülərin bir günü də Xoca gedəndə Seyid Nəsimi dostlarına dedi: "Gəlin qoyunu kəsək, biz də dua etməyi bilirik, Xoca heç nəyi başa düşə bilməyəcək". Onlar beləcə hərəkət etdi. Nəsimi qoyunu kəsdi və dərisini soydu. Kəsikbaş onun başını kəsdi, Nəsrəddin gülürdü və onu ələ saldı. Seyid Muxarem bağırırdı və bir növ əylənirdi. Qoyunu yedilər, amma bir daha onu canlandıra bilmədilər. Qayıdan Xoca onları lənətlədi və bu qoyunu kəsmək işində iştirakına görə gələcək haqqında peyğəmbərlik etdi: 1) Xoca Nəsrəddin təlxəyə çevrildi; 2) Kəsikbaş şəhid oldu; 3) Seyid Muxarem Sidri dağından yıxıldı. Bu yer toplaşma və gəzinti yerinə çevrildi; 4) Nəsimi əsas günahkar kimi ən ağır cəzanı aldı. O, müfti oldu, amma onun düşmənləri o qədər bacardılar ki, onun əmr etdiyi keşişi apardılar və müsəlman inancını etiraf edən kağızı xalçanın altından itələdilər, buna görə sufi ölümə məhkum edildi, diri-diri dərisi soyuldu və hökm icra olundu *(Elə orada, səh. 429)*. Fikrimcə, adı çəkilən əfsanənin variantları ümumilikdə aşağıdakıları göstərir: a) Bu rəvayət dini, ortodoks əhval-ruhiyyəli olan insanlar arasında yaradılmışdır; b) Belə çıxır ki, bu cür əhval-ruhiyyəli insanlar Xocanın gülüşünün təsir gücünü tanısalar da, buna xeyirxahlıqla yanaşmırlar və onu təlxək kimi xatırlayırlar. Üstəlik, onun bu istedadı Allahdan bir cəza olaraq hesab edilir; c) Onlar həm sufi dairələrində, həm də xalq arasında böyük nüfuz sahibi olan şəxsləri əzabkeş olaraq qələmə verilən şəxslərlə əlaqələndirirlər; ç) Bu da ki, artıq o dövrdə Xoca Nəsrəddinin məşhurluğundan və ləyaqətindən xəbər verir; d) Ümumiyyətlə, əfsanə xronoloji, məkan-coğrafi və etnik çərçivələri və tarixi şəxsiyyətin real varlığını və fəaliyyətini tanımır. Qısası, bu cür əfsanələr də bizi bir daha inandırır ki, Xoca Nəsrəddin tarixi, istərsə də dini xadim deyil, xalq tərəfindən yaradılan xalq gülüşünün hazırcavab qəhrəmanıdır.

Yaxın Şərqin yerli xalqlarının, öz etnik mənsubiyyətindən asılı olmayaraq, Xoca Nəsrəddini öz xalqının qoynunda doğulmuş, öz cinsinin, öz tayfasının oğlu hesab etmələrinin, hətta onunla fəxr etmələrinin məhz elə əsas səbəbi budur: uyğurlar, azərbaycanlılar, özbəklər, taciklər, türkmənlər, tatarlar, qaqauzlar, yunanlar, farslar və s. *(Küprülü Mehmet Fuat, Nasreddin Hoca üstune, s. XXX-VIII, Nasreddin Hoca Fıkraları, Türkiye İş Bankası Kültur Yayınları, 2016.)* Bu cür populyarlıq Xoca Nəsrəddinin portretini heç vaxt azaltmır, əksinə, ucaldır və onu zərif yumor sahibi, ümumiyyətlə, çətin və faciəli bir zamanda xalqın ümidinə, təsəllisinə çevrilmiş sevimli və sayılıb-seçilən qəhrəman kimi hamılıqla tanıdır. Bu da bizi daha da möhkəm əmin edir ki, gülüş təkcə düşməni məhv etmək və özünümüdafiə silahı deyil, eləcə də mənliyin, bizliyin və eyniyyətin xilas edilməsi yoludur və vasitəsidir; ən çətin vəziyyətdə və durumda özününkünü yeritməyin və xilas olmağın əvəzsiz dərmanı və vasitəsidir. İndi çox qısaca desək, Xoca Nəsrəddinin lətifələrinin populyarlaşmasının səbəbi nədir və onun yumorunun özəlliyi nədədir? Bu barədə də fikir ayrılıqları mövcuddur. Məsələn, Eflatun Cem Güney belə düşünür ki, Xoca Nəsrəddin də Yunus Əmrə kimi geniş daxili aləmini bir damla göz yaşına çevirə bilmişdir. Bu nəhəng dünyadan gözəl bir təbəssüm yonulmuşdu. Bunun bir adı var: yalın və xalis söz!

*(davamı növbəti sayda)*

Müəllif: **Elizbar CAVELİDZE**

Gürcü dilindən tərcümə etdi:

**Mirzə MƏMMƏDOĞLU**

İCTİMAİ QƏZET ❀ yeniyolqazeti@gmail.com ❀ "იენი იოლი" საზოგადოებრივი გაზეთი ❀ HAQQIN SÖZÜ – SÖZÜN HAQQI

15 APREL
2024-CÜ İL
№ 07 (202)

# Yeni YOL

Qəzet 17 iyun 2015-ci il tarixindən nəşr olunur.

## VAHİD MİLLİ İMTAHANLARA 47000-DƏN ÇOX ABİTURİYENT QEYDİYYATDAN KEÇİB



Qiymətləndirmə və İmtahanlar üzrə Milli Mərkəz 2024-cü il imtahanları üçün qeydiyyatdan keçənlərin statistikasını yayımlayıb. Statistikaya əsasən, vahid milli imtahanlara qeydiyyat olanların sayı bu il də rekord səviyyədədir.

Aprelin 8-də mərkəz ümumi magistratura və tələbələrin qrant müsabiqəsi imtahanlarına qeydiyyatdan keçənlərin statistikasını da yayımlayıb:

Vahid milli imtahanlara 47000-dən artıq abituriyent qeydiyyatdan keçib.

Tələbələrin qrant müsabiqəsində iştirak etmək üçün 3000-dən artıq tələbə öz istəyini bildirib.

Ümumi magistratura imtahanlarına 10000-dən artıq namizəd qeydiyyatdan keçib.

Qiymətləndirmə və İmtahanlar üzrə Milli Mərkəz bir daha abituriyentlərə bildirib ki, fənn silmək və ya əlavə etmək, imtahan dilini dəyişmək 15 aprel saat 18:00-a qədər mümkündür.

Təhsil proqramları siyahısında dəyişiklik etmək apelyasiya nəticələrinin yayımlanmasından növbəti gün saat 18:00-a kimi mümkündür. Konkret tarix elan ediləcək.

Müəllimlərin fənn, xüsusi baş müəllim və baza peşə bacarıqları imtahanı üçün qeydiyyat 15 aprel saat 18:00-da başa çatacaq.

*Mənbə: edu.aris.ge*

## GÜRCÜSTANDA 860918 NƏFƏRİN ŞƏXSİYYƏT VƏSİQƏSİ VƏ PASPORTU YOXDUR



2024-cü il 18 marta olan vəziyyətə görə, Gürcüstanda ümumilikdə 860918 nəfərin elekton və qeyri-elektron şəxsiyyət vəsiqəsi və pasportu yoxdur. Onlardan 691387-si azyaşlı, 169531-i isə yetkinlik yaşına çatmışlardır. Bu barədə Dövlət Xidmətlərinin İnkişafı Agentliyinin məlumatında qeyd olunub.

Qeyd etmək lazımdır ki, aktiv elektron şəxsiyyət vəsiqələrinin sahibi olan Gürcüstan vətəndaşlarının sayı 3138447 nəfər təşkil edir. Gürcüstan pasportuna sahib olan, ancaq şəxsiyyəti təsdiq edən digər sənədləri olmayanların sayı 402347 nəfərdir. Gürcüstanın elektron şəxsiyyət vəsiqəsinin 18 yaşlı şəxslər üçün 10 illik müddəti var. 18 yaşa qədər şəxlsər üçün isə 4 illik müddətə verilir.

Maraqlıdır ki, 2019-cu ilin 26 dekabrından 2024-cü ilin 18 martına qədər Gürcüstan vətəndaşlarına 3238 qeyri-elektron şəxsiyyət vəsiqəsi (1 aylıq/inanca görə) verilib.

Məlumat üçün bildirək ki, Gürcüstan vətəndaşı 14 yaşına çatdıqdan sonra 6 ay ərzində elektron şəxsiyyət vəsiqəsi almağa borcludur. Qanuni nümayəndə arzu edərsə, hətta 14 yaşına çatmamış şəxslər üçün də Gürcüstan vətəndaşının elektron şəxsiyyət vəsiqəsini hazırlamaq mümkündür.

*Mənbə: bm.ge*

## GÜRCÜSTANDA 166 KİŞİNİN, 8582 QADININ TƏK VALİDEYN STATUSU VAR



Gürcüstanda 165 kişinin tək ata statusu var, 1 kişi isə övladlığa uşaq götürüb. Bu barədə Dövlət Xidmətlərinin İnkişafı Agentliyindən bildiriblər.

Agentliyin statistikasına əsasən, 2024-cü ilin 18 martına olan vəziyyətə görə, Gürcüstanda ümumilikdə 8762 nəfərə tək valideyn statusu verilib. Buradan isə, qeyd etdiyimiz kimi, 166-sı kişi cinsinin nümayəndəsidir.

8582 qadına tək ana statusu verilib ki, onlardan 14 nəfəri övladlığa uşaq götürənlərdir.

Müvafiq statistikaya görə, 2023-cü ildə cəmi 2518 qadına və 110 kişiyə tək valideyn statusu verilib.

Mənbə: bpn.ge

## MİLLİ BANK 500 MİLYON DOLLARA 7 TON QIZIL ALIB



Gürcüstan Milli Bankı ölkə tarixində ilk dəfə olaraq beynəlxalq ehtiyatlarına monetar qızıl əlavə edib. Bu barədə Gürcüstan Milli Bankı məlumat yayıb.

Məlumatda bildirilir ki, Milli Bank London əmtəə birjasından 500 milyon ABŞ dolları dəyərində ən yüksək əyarlı (999,9) 7 ton qızıl külçə alıb. Bununla da, monetar qızıl Gürcüstanın bütün beynəlxalq ehtiyatlarının təxminən 11 faizini təşkil edir.

Hazırda qızıl külçələr Londonda saxlanılır, amma gələcəkdə ölkəyə – Milli Bankın anbarına gətiriləcəyi planlaşdırılıb.

Qeyd edilir ki, ötən il Milli Bank valyuta bazarından rekord məbləğdə – 1,5 milyard ABŞ dolları alıb. Bu da ehtiyatların əhəmiyyətli dərəcədə artmasına səbəb olub və onların bir qismini monetar qızıldakı aktivlərlə əvəzləməyə imkanı verib.

## GÜRCÜSTANIN XARİCİ BORCU 24 MİLYARD DOLLARI KEÇİB



Gürcüstanın ümumi xarici borcu ötən ilin sonlarında artaraq 24 milyard dolları keçib. Bu barədə məlumat Gürcüstan Milli Bankının saytında yerləşdirilib.

Məlumata əsasən, ölkənin xarici borcu 2023-cü il dekabrın 31-nə 24,2 milyard dollar təşkil edib. Bu da ümumi daxili məhsulun 79,2 faizi deməkdir.

Xarici borcun 11,2 milyard dollarını dövlət borcu (ÜDM-in 30,2 faizi) təşkil edir. Bank sektorunun borcu 7,3 milyard dollar, özəl müəssisələrin borcu 4,6 milyard dollar, şirkətlər arasında borc isə 2,7 milyard dollardır.

Ümumi borcda xarici valyutada olan borcun xüsusi çəkisinin 88,5 faiz olduğu bildirilir.

Təsisçi:
"Gürcüstan Gənclərinə Yardım və Maarifləndirmə Təşkilatı"

Redaktor:
Azər MUSAOĞLU
Yayım direktoru:
Hacı BƏKİROĞLU
Qrafik dizayn:
Elsevər ƏHMƏDOV

ÜNVAN: Rustavi şəh., Şartava küç. 12 b
TEL: (+995) 555 96 18 68
599 54 12 92
İMEYL: yeniyolqazeti@gmail.com

Yazılar yalnız elektron variantda qəbul edilir və onlara rəy verilmir. Müəlliflə redaksiyanın mövqeyi müxtəlif ola bilər. Qəzet hələlik ictimai əsaslarla yayımlanır və pulsuz paylanır. Qəzetdə müxtəlif informasiya agentliklərinin xəbərlərindən də istifadə olunur.